

# XUDAFƏRİN

"Xudafərin harayından qalan mən!.."

Qəzet 1932-ci ildən çıxır № 05-06 (6767-6768) 10 may 2016-cı il Cəbrayıl RİH-nin orqanı


# 10 May - Ümummilli Lider Heydər Əliyevin anadan olmasının 93-cü ildönümüdür

# 9 May - Faşizm üzərində Qələbədən 71 il ötür



"Tarix həmişə hər şeyi öz yerinə qoyur. Tariximizin hər səhifəsi bizim üçün əzizdir".

Heydər Əliyev

## Ulu Öndərin xatirəsi anıldı





Ümummilli Liderimiz Heydər Əliyevin anadan olmasının 93-cü ildönümü münasibətilə ümumrayon tədbiri keçirilmişdir. Ulu Öndərin abidəsi önünə gül-çiçək dəstələri düzülməsi ilə başlanan tədbirdə rayon İcra Hakimiyyətinin başçısı Kamal Həsənov nitq söylədi. O, çıxışında Ulu Öndərin keçmiş olduğu şərəfli ömür yolundan danışdı. Bu gün də onun əməllərinin yaşadığını və ölkə prezidenti İlham Əliyev cənabları tərəfindən uğurla davam etdirildiyini nəzərə çatdırdı. Cəbrayıllıların Heydər Əliyevin siyasi kursuna sadiqlik nümayiş etdirərək ölkə başçısının ətrafında sıx birləşdiklərini qeyd etdi.

Rayon İcra Hakimiyyəti başçısının humanitar məsələlər üzrə müavini Fəridə xanım İbayeva, sosial-iqtisadi məsələlər üzrə müavini Tapdıq Nəsirov və başqaları çıxış edərək Ümummilli Liderimiz Heydər Əliyevin xalqımız qarşısındakı müstəsna xidmətlərindən və misilsiz dövlətçilik fəaliyyətindən danışdılar. Onun əbədiyaşar əməllərinin həmişə xalqımız tərəfindən yüksək qiymətləndirildiyini və gələcək nəsillər üçün şanlı bir örnək qoyub getdiyini bildirdilər.

Ulu Öndərin xatirəsinə ehtiram əlaməti olaraq iməcilik təşkil olundu, ağacəkmə aksiyası həyata keçirildi.

*"Xudafərin"*





## Təbrik edirik!

**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev cənablarının 18 aprel 2016-cı il tarixli Sərəncamı ilə Kamal İltifat oğlu Həsənov Cəbrayıl Rayon İcra Hakimiyyətinin başçısı vəzifəsinə təyin olunmuşdur.**

**Bu münasibətlə Kamal müəllimi ürəkdən təbrik edir, ölkə başçısının ona göstərdiyi yüksək etimadı doğrultmasını və ictimai-siyasi fəaliyyətində böyük uğurlar qazanmasını arzulayırıq!**

*"Xudafərin"*

## Bayram tədbiri keçirildi



***Mayın 9-da Biləsuvar rayonu 4 saylı qəsəbə ərazisində salınmış Ulu öndər Heydər Əliyevin adını daşıyan Mədəniyyət və İstirahət parkında alman faşizmi üzərində qələbənin 71-ci ildönümü ilə əlaqədar bayram tədbiri keçirildi.***





Bayram tədbirindən əvvəl RİHB aparatının məsul işçiləri, hüquq-mühafizə orqanlarının rəhbərləri, ərazi nümayəndələri, Qarabağ müharibəsi əlilləri, məktəb direktorları və yuxarı sinif şagirdləri Biləsuvar rayonu 4 saylı qəsəbə ərazisində salınmış "Şəhidlər" Abidə Kompleksində torpaqlarımızın azadlığı uğrunda şəhid olmuş rayon şəhidlərinin abidəsi önünə gül-çiçək dəstələri qoyaraq ruhlarını ehtiramla yad etdilər.

Mədəniyyət və İstirahət parkında davam etdirilən tədbiri giriş sözü ilə Cəbrayıl rayon İcra Hakimiyyətinin başçısı Kamal Həsənov açaraq alman faşizmi üzərində qələbənin 71-ci ildönümü ilə əlaqədar tədbir iştirakçılarını təbrik etdi. Qeyd etdi ki, İkinci dünya müharibəsi XX əsrdə bəşəriyyətin ən dəhşətli müharibəsi olmuşdur. Müharibə bəşəriyyətə çox böyük itkilər bahasına başa gəlmişdir. Bu müharibədə təxminən 50 milyon insan həlak olmuş, milyonlarla insan yaralanmış, itkin düşmüş, işgəncə və zülmlərə məruz qalmışdır. O vaxt SSRİ-nin tərkibində olan Azərbaycan da bu müharibəyə qoşulmalı olmuşdur. Böyük Vətən Müharibəsində Azərbaycan xalqı istər cəbhədə, istərsə də arxada misilsiz döyüş və əmək rəşadəti göstərmişdir.

Bayram tədbirində çıxış edənlər Böyük Vətən Müharibəsinin ağır fəsadlarından söhbət açmışlar. Onlar həm Azərbaycan Milli diviziyalarının keçdiyi şərəfli döyüş yolundan, həm də Bakı neftinin bu qələbənin əldə edilməsində oynadığı mühüm roldan bəhs etmişlər. Böyük Vətən müharibəsi iştirakçılarına göstərilən yüksək səviyyəli dövlət qayğısına görə Ulu Öndər Heydər Əliyevin siyasi kursunun layiqli davamçısı ölkə başçısı İlham Əliyev cənablarına və rayon rəhbərliyinə öz minnətdarlıqlarını bildirmişlər.

Bayram tədbirini Cəbrayıl rayon İcra Hakimiyyətinin başçısı Kamal Həsənov yekunlaşdırdır.

**"Xudafərin"**



"Xudafərin harayından qalan mən!.."
XUDAFƏRİN

# Həmrəylik mitinqi keçirilmişdir

*Cəbrayıllılar Silahlı Qüvvələrimizin Qələbəsini böyük ruh yüksəkliyi ilə qarşılayır, Möhtərəm Prezidentimizin əmrini gözləyirlər*



**Cəbhə bölgəsində Ermənistanın növbəti təxribatı ilə bağlı Silahlı Qüvvələrimizin düşmən qüvvələrinə layiqli cavab verməsi və ordumuza ümumxalq dəstəyinin nümayiş olunması ilə əlaqədar aprelin 5-də Biləsuvar rayonu ərazisində Cəbrayıllı məcburi köçkünlər üçün salınmış 4 saylı qəsəbə klubunda Rayon İcra hakimiyyətinin rəhbərliyi və məsul əməkdaşları, YAP rayon təşkilatının üzvləri, idarə və müəssisə rəhbərləri ilə yanaşı, rayon ağsaqqallarının, Qarabağ müharibəsi veteranlarının, gənclərin iştirakı ilə toplantı keçirilmişdir.**

Toplantıda Cəbrayıl Rayon İcra Hakimiyyətinin başçısı vəzifəsini icra edən, Yeni Azərbaycan Partiyası Cəbrayıl Rayon təşkilatının sədri Arif Fərzəliyev çıxış edərək bildirmişdir ki, Azərbaycan Respublikası Prezidentinin apardığı məqsədyönlü siyasət nəticəsində Azərbaycan bu gün regionda və dünyada mehriban qonşuluq siyasəti yürüdür,



böyük dövlətlərlə, nüfuzlu beynəlxalq təşkilatlarla qarşılıqlı faydalı əməkdaşlığı daha da möhkəmləndirir.

Torpaqlarımızın qeyd-şərtsiz boşaldılması ilə bağlı Beynəlxalq səviyyədə aparılan sülhməramlı danışıqlara, BMT-nin qəbul etdiyi 822, 853, 874, 884 saylı qətnamələrə, digər beynəlxalq hüquq normalarına məhəl qoymadan öz məkrli əməllərini davam etdirən Ermənistanın təxribatçı qrupları üzərində Ali Baş Komandan, Prezident İlham Əliyevin rəhbərliyi altında xalqımız ilk qələbəsini qazandı.

Bu münasibətlə möhtərəm Prezidentimizi və xalqımızı təbrik edən A.Fərzəliyev qeyd etmişdir ki, 3 aprel 2016-cı il tarixdə Azərbaycan Respublikası Prezidentinin yanında Təhlükəsizlik Şurasının iclasında Möhtərəm Prezidentimizin etdiyi çağırış cəbhədə vuruşan döyüşçülərimiz və Cəbrayıl rayon ictimaiyyəti tərəfindən böyük ruh yüksəkliyi ilə qarşılanmışdır.

1988-cı ildən bəri Azərbaycanımızın ərazi bütövlüyü, torpaqlarımızın müdafiəsi uğrunda 400-ə yaxın şəhid verən, həmişə dövlətçiliyə, Ümummilli Liderimiz Heydər Əliyevin siyasi xəttinə sədaqətli olmuş Cəbrayıllılar, möhtərəm Prezidentimizin rəhbərliyi ilə uğurla həyata keçirilən siyasi kursu dəstəkləyir, Ali Baş Komandanımızın ətrafında sıx birləşərək onun döyüş əmrini gözləyirlər. Azərbaycanın parlaq gələcəyinin, ərazi bütövlüyünün, suverenliyinin təmin olunması, xalqımızın rifahı, tərəqqisi və dogma Qarabağ torpaqlarımızın erməni təcavüzündən azad edilməsi istiqamətindəki məqsədyönlü siyasətə daim tərəfdar olduqlarını bildirirlər.

Səfərbərlik və Hərbi xidmətə çağırış



üzrə Dövlət Xidmətinin rayon bölməsinin rəisi Anar Rəhimov ön cəbhədə baş verən hadisələrlə bağlı məlumat verərək bildirdi ki, döyüşçülərimiz nəinki təxribatın qarşısını alıb, eyni zamanda əlverişli hərbi mövqeləri ələ keçirərək təmas xəttində əsas mövqelərini möhkəmləndiriblər.

YAP rayon təşkilatının sədr müavini Məhəmməd Əliyev, rayon ağsaqqalları Məhəmmədəli Mehdixanov, Əkbər Məmmədov, əməkdar müəllim Rəhim Rəhimov, gənc müəllim Nahid Muradov, Hidayət Səfərli Qarabağ əlilləri,



veteranlar və şəhid ailələri cəmiyyətinin sədri Səbuhi Hüseynov və digərləri toplantıda çıxış edərək qeyd ediblər ki, bu gün insanlar yüksək əhval-ruhiyyə nümayiş etdirərək, Möhtərəm Prezidentimizlə, ordumuzla həmrəy olduqlarını bildirir, ordumuzun yaxın vaxtlarda tam Qələbə qazanacağına qətiyyətlə inanırlar.

***Yığıncaq iştirakçıları adından Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrimizin Ali Baş Komandanı İlham Əliyev cənablarına müraciət qəbul olunmuşdur.***

**"Xudafərin"**

## Baş redaktordan



*Şakir Albalıyev*

# Azərbaycan ordusuna eşq olsun!

***Suvorov, Çan Kayşi, Stalin - bu üç nəfər bütün dünya tərəfindən birmənalı olaraq qazandıqları hərbi zəfərlərə və döyüşlərdəki məğlubedilməz sərkərdəlik şücaətlərinə görə dünyanın ən böyük hərbi rütbəsi sayılan generalissimus adına layiq görülmüşlər.***

Baxmayaraq ki, dünyada 36 nəfər özü-özünə generalissimus rütbəsi vermişdir, ancaq onlar ümumdünya miqyasında qəbul edilmədiklərindən, tanınmadıqlarından, etibarsız hesab olunmuşdur. Çünki bu yüksək hərbi rütbənin qazanılması üçün ümdə şərtlərdən biri hərbi sərkərdənin apardığı bütün döyüşlərdə udması-qələbə çalması amilidir, başqa sözlə, məğlubedilməzliyidirsə, digər şərtlərdə bu məğlubedilməzliyin bütün bəşəriyyət tərəfindən qəbul olunub tanınmasıdır.

Əgər bu hərbi rütbənin verilmə tarixi nisbətən tarixin sonrakı dönəmlərindən başlanmasaydı, onda qədim dünya zamanından başlayaraq yenilməz türk sərkərdələrinin göstərdikləri misilsiz qəhrəmanlıqlar, onların döyüş fütuhatı çoxdan general issumus adları ilə təltif olunardı. Böyük Hun imperiyası, qədim türklər, Metedən, Atilladan başlanan qüdrətli hərbi cəngavərlik tariximizin şanının-şöhrətinin dünya ilə bir olduğu danılmaz həqiqətdir. Məşriqdən Məğribə, Asiyadan Avropaya geniş coğrafiya boyunca Atillanın qazandığı hərbi nailiyyətlər, avropalıların qorxunc kabus kimi andıqları və "Tanrının qırmancı" adlandırdıqları Atilla (Attila) dünya tarixinin əbədiyaşar, pozulmaz hərb səhifəsini öz yenilməz hərbi hünəri ilə yazdı...

Qoc Koroğlu başının 7777 dəlisi (igidi) ilə bir əlində saz dəli nərəsi ilə hayqıraraq mənəvi gücü olan saz-söz, hətta səs savaşı ilə düşmənlərini yendisə, digər əlində isə Tanrının ona göydən ətə etdiyi ildırım parçası ilə düzəldilmiş Misri qılıncı ilə fiziki zoru hesabına yağılara ödünü-sarfasını qusdurdu. Yenilməzlik simvolu kimi Koroğlu adı dildə-ağızda gəzdi-dolaşdı, adınahünərinə dastanlar bağlandı. Mifik yaddaşda və tarixi şüurda əbədiləşib ölməzlik qazandı. Bəs necə, insanın ölümsüzlüyə qovuşması bəs necə olmalıdır? İnsan ölümsüzlüyü mənəvi və cismani baxımdan nümayiş etdirdiyi misilsiz əməlləri sayəsində qazanır, beləcə adını tarixin pozulmaz səhifəsinə yazdırıb əbədiləşir - ölümsüzlük qazanır.

Əgər İ.Nəsimi söz - fikir, ideya savaşının yenilməz sərkərdəsi kimi hünər göstərib şəhadətə qovuşmaqla əbədiyyət qazandısa, Babək isə əməl-hərb savaşında azadlıq fədaisi kimi öz fiziki gücü hesabına qılıncını çalmaqla şəhidliyə qovuşub qəhrəman sərkərdə kimi tarixdə əbədiyyət mücəssəməsinə döndü.

Böyük yazıçımız M.S.Ordubadinin romanının adındakı "Qılınc və Qələm" sözlərinin də mahiyyətində türk-Azərbaycan dünyasının qılınc (hərb) və Qələm (söz, fikir, ideya) savaşlarında yenilməz güc sahibi olduğu ideyası daşınır.

Əgər bu qələm - qələmin ifadəsi olan söz ilahi-mistik missiyasını sülhlə başa çatdıra bilmirsə, onda türkün bükülməz-qatlanmaz qolunun ifadəsi olan yenilməz fiziki gücü - Qılıncı, silahı işə düşüb saz-söz savaşı ilə birləşib qələbə missiyasını tamamlayası olur. Elə Ulu Öndərimiz Heydər Əliyevin apardığı məqsədyönlü sülh siyasəti də, ölkə başçısı İlham Əliyev cənablarının da məhz ümummilli liderimizin sülh siyasətini ardıcıl surətdə illərlə davam etdirməsi prinsipi də sözün ilahi missiyası olan Sülhü qorumağa və sülhlə haqq-ədaləti bərpa etməyə, düşmənlərimizin işğal etdikləri əzəli dədə-baba torpaqlarımıza qayıtmağa hesablanmış hərbi-siyasi taktika idi. Əks təqdirdə, təbii ki, Qələm (Söz) öz Sülh meydanını qanlı hərb meydanına verməli idi. Bu, labüd idi. 2016-cı ilin aprelin 1-dən 2-nə keçən gecədən başlanan 4-5 günlük şərəfli hərbi nailiyyətlərimiz də, mənim həmin ərəfədə ANS televiziyasında birbaşa canlı yayımda dediyim kimi, Azərbaycan ordusunun düşmənin işğalçı siyasət yürüdən ordusuna qarşı bir xəbəredici siqnal, bir xəbərdarlıq mesajı oldu. Mühüm strateji əhəmiyyətli döyüş mövqeləri düşmənlərimizdən azad edildi. Düşmən çoxlu sayda itki verdi. Bu savaşda ordumuzun əsgərlərindən də yaralananlar, şəhid olanlar oldu. Cəbrayıl camaatı da bu döyüşlərdə qəhrəmancasına həlak olmuş iki şəhid balası ilə - Ruhin Əşrəf oğlu Qəhrəmanovla və Mahmud Azər oğlu İbrahimovla böyük izdihamla vidalaşdı.

Qoy düşmən bir daha bilsin, anlasın, qəflətdən ayılsın ki, Macarıstanda həmyerlimiz Ramil Səfərovun öz qolu gücünə düşmənə göstərdiyi ölümcül zərbə də, bir yenilməz batalyonun işini bir gecədə təkbaşına görən Mübariz İbrahimovun hünəri də özlüklərində ayrı-ayrılıqda hər bir Azərbaycan əsgərinin yenilməz döyüş rəşadətindən xəbər verir.

Eşq olsun Azərbaycanın haqq işi uğrunda döyüşən ordusuna!

***Azəri ordusu-alınmaz qala,***
***Onun şərəfinə ocaq çat, qala!***
***Bir vaxt son qoyaraq hər qalmaqala,***
***Qoymaz ki, dünyada qalmaqal qala,***
***Olacaq müzəffər Milli Ordumuz!***

# Qarabağa əsgərik!

*(Döyüş marşı)*

Qarabağ - füsunkar gözəl bir gəlin,
Könüllər fəth etmiş Leylimdir mənim.
Yağılar yurdumun şəhvət əsiri,
Biz namus yolunda düşmənə qənim,
Vətən fədaisi - məcnun əsgərik!

Qarabağ ölkəmin Leyli rəmzidir,
Ona can verdilər məcnun şəhidlər.
Yağılar yurduma çıxıblar şərik,
Fəqət yenə bilməz haqqı haqsız şər,
Biz haqq ordusuna qoşun əsgərik!

Qarabağ torpağı Vətən zirvəsi!
Biz qartal ürəkli göydələnlərik.
Yağı bağrı dələn mərd ərənlərik.
Andımız qəhrəman Babək türbəsi,
Odlar yurdumuza vurğun əsgərik!

Qarabağ - ən qədim müqəddəs məkan,
Azıx - babalarım uyuyan beşik.
Vətənə sevgimiz sarsılmaz birlik,
Sinəmiz eşq odu püskürən vulkan,
Məhəbbət sevdası coşğun əsgərik!

***Şakir ALBALIYEV***

# RUHİNİN "ŞƏHİDLİK DASTANI"

## ( ŞƏHİD RUHİN ƏŞRƏF OĞLU QƏHRƏMANOVLA VİDA MƏRASİMİNDƏN QEYDLƏR )



Yadellilər daim torpaqlarımıza göz dikiblər. El-obamızın igid oğul və qızları zaman-zaman bu



xəbis xislətli düşmənlərimizlə üz-üzə dayanıb, hər bir sınaqdan alnıaçıq, üzüağ çıxıblar.Tale elə gətirib ki, hiyləgər, qul xislətli qonşu xəyanətləri nəticəsində itkilərimiz,uğursuzluqlarımız da olub. Bizə ərazi iddiaları irəli sürən üzdəniraq qonşularımızdan söz düşəndə "yersiz gəldi, yerli qaç" məsəli yada düşür.Artıq otuz ilə yaxındır ki, onlar işğalçılıq planlarından əl çəkmək istəmirlər.Bəzi məqamlarda isə haqlı olaraq "arxalı köpək qurd basar" məsəlindən doğan bir təəssürat formalaşır bizdə.Babalarımızın çomağının zərbinə bələd olan düşmən, havadarlarına güvənərək üstümüzə ayaq alıb.Bu il aprel ayının əvvəllərində baş verənlər də xalqımıza qarşı yönəldilmiş yeni bir təxribat planının həlqəsi idi.

Düşmənlə təmas xəttinə yaxın olan ərazilərdə yaşayan əhalimiz, bütövlükdə xalqımız aprelin ikisinə keçən gecəni dirigözlü açdı. Azğınlaşmış düşmən bütün cəbhə boyu mövqelərimizi, yaşayış məntəqələrimizi intensiv atəşə məruz qoydu.Mülki əhali arasında ölən və yaralananların olması hər birimizi hiddətləndirdi.Təxribatın qarşısının alınması, mülki əhalinin təhlükəsizliyinin təmin olunması məqsədilə Silahlı Qüvvələrimizin komandanlığı tərəfindən Ağdərə-Tərtət-Ağdam və Xocavənd-Füzuli istiqamətlərində cavab tədbirlərinin həyata keçirilməsi barədə qərar qəbul olundu.

Qısa bir müddətdə ordumuz həyata keçirilən sürətli əks hücumla düşmənin uzun illərdən bəri mühəndis-istehkam baxımından möhkəmləndirdiyi birinci müdafiə xəttini bəzi istiqamətlərdə darmadağın edib, strateji əhəmiyyətə malik bir neçə yüksəklik və yaşayış məntəqələrini düşmən tapdağından azad etdi.Goranboy rayonu və Naftalan şəhərinə təhlükə yarada biləcək Talış kəndi ətrafındakı yüksəkliklər, eləcə də Seysulan yaşayış məntəqəsi igid əsgər və zabitlərimiz tərəfindən geri alındı.Horadiz şəhərinin düşmən təhlükəsindən qorunması məqsədilə Füzuli istiqamətində yerləşən, geniş ərazini nəzarətdə saxlamaq imkanı verən strateji əhəmiyyətli "Lələ təpə" adlandırılan yüksəklik də bölmələrimizin nəzarəti altına keçdi.Düşmənlə döyüşlərdə Silahlı Qüvvələrimizin hərbi qulluqçuları misilsiz igidliklər göstərərək şəhidlik məqamina yüksəldilər. 02-05 aprel tarixlərdə apalılan uğurlu əməliyyatlar hərb tariximizə qızıl hərflərlə yazıldı. Bu şərəfli tarixi yazanlar içərisində həmyerlilərimizin öz imzası, öz dəsti-xətti oldu. Cəbrayıl əhalisi də doğma torpaqlarımızın işğaldan azad edilməsi uğrunda ölüm-dirim savaşında iki igid oğlunu itirdi: Ruhin Əşrəf oğlu Qəhrəmanov və Mahmud Azər oğlu İbrahimov.

Şəhid-yüksək amal, məslək, əqidə, din və ya inanc uğrunda ölən, canını fəda edən şəxs, şəhid olma hadisəsi isə şəhadət adlanır. Məhəmməd peyğəmbər şəhidlər haqqında deyirdi: "Şəhid cənnətdədir. Allah qatında xeyirli bir mərtəbədə ikən, heç bir qul bir daha dünyaya qayıtmaq istəməz. Ancaq şəhidlər bundan müstəsnadır. Çünki şəhidlər şəhid olmanın necə üstün mərtəbə olduğunu bildikləri üçün yenidən şəhid olmaq üçün can atırlar". Şəhid Ruhin Əşrəf oğlu Qəhrəmanovun nəşi də elə bu ali məqama layiq qarşılandı.



Hələ köçkünlər qəsəbəsi belə bir izdiham görməmişdi. Uşağından tutmuş ahılına qədər bütün qəsəbələrdən, qonşu kəndlərdən axın-axın gələn insanlar qəhrəman vətən oğluna son borclarını verməyə çalışırdılar. Ermənistan Silahlı Qüvvələrinin təxribatının qarşısını alarkən şəhid olmuş həmyerlimiz, 01 noyabr 2014-cü il tarixdən müddətdən artıq hərbi xidmətdə olan çavuş Ruhin Əşrəf oğlu Qəhrəmanovun cənazəsi 02 aprel 2016-cı il tarixdə ailəsinin məskunlaşdığı Biləsuvar rayonu ərazisinə, cəbrayıllı məcburi köçkünlər üçün salınmış 2 saylı qəsəbəyə gətirildi. Artıq qaranlıq çökdüyündən göydəki ay-ulduz tabuta bükülmüş üçrəngli bayrağımızdakı ay-ulduzla göz-gözə gəlmiş, bayrağımız şəhid önündə əyildiyindən daha möhtəşəm, daha qürurlu



görkəm almışdı.



Şəhid balamız evinin, ailəsinin,elinin bir gecəlik qonağı oldu. Səhər saat on bir radələrində şəhid eloğlumuzla vida mərasimi keçirildi.Bu sətirlərin müəllifi mərasimi açaraq şəhidlərimizin, o cümlədən Ruhin Qəhrəmanovun xatirəsini bir dəqiqəlik sükutla yad etməyi xahiş etdi.

Vida mərasimində Cəbrayıl Rayon İcra Hakimiyyəti Başçısının vəzifəsini icra edən Arif Fərzəliyev, Xocavənd Rayon İcra Hakimiyyətinin Başçısı Eyvaz Hüseynov, Azərbaycanın Milli Qəhrəmanı İbad Hüseynov, Səfərbərlik və Hərbi xidmətə çağırış üzrə Dövlət Xidməti rayon bölməsinin rəisi Anar Rəhimov, Qarabağ əlili Eldəniz Əhmədov, şəhidin döyüş yoldaşları adından mayor Yusifov, şəhidin təhsil aldığı Ramiz Xudiyev adına Minbaşılı kənd tam orta məktəbin direktoru İsmayıl Quliyev, şəhidin atası Əşrəf Qəhrəmanov çıxış edərək ordumuzun son döyüş uğurlarından qürurla söz açdılar,şəhidlərimizin qanının yerdə qalmayacağını bildirdilər.Şəhidlərimizin ruhuna dualar oxundu.

Mərasim iştirakçılarının çiyinlərində, üçrəngli ay-ulduzlu bayrağımıza bükülmüş şəhid nəşi 3 saylı qəsəbə qəbiristanlığına götürüldü.

İyirmi iki yaşlı şəhidimiz bir neçə ay öncə cəbhənin Füzuli rayonu istiqamətində gedən döyüşlərdə qəhrəmanlıq göstərərək, təkbaşına beş erməni əsgərini məhv etmişdi.

Həmin şücaətindən sonra "N" saylı hərbi hissənin komandanlığı tərəfindən məzuniyyətlə mükafatlandırılmışdı.Bir ay öncə valideynlərinin yanına məzuniyyətə gələn əsgər bu gün geriyə şəhid kimi döndürdü. "Lələ təpə" yüksəkliyinin və ətraf ərazilərin düşməndən təmizlənməsində, xüsusilə "Kitay" adlandırılan düşmən postunun ələ keçirilməsində fədakarlıq göstərmişdir. Şəhid Ruhinin atası Əşrəf kişi də birinci Qarabağ savaşı zamanı döyüşlərdə iştirak edib.Qardaşı Qəhrəman da Silahlı Qüvvələrimizin müddətdən artıq hərbi xidmət keçən qulluqçusudur. Son döyüşlər zamanı Qəhrəman da igidliklə vuruşaraq yaralanıb.Onun bədənindən çıxarılmış qəlpələr də bu vətən oğlunun fədakarlığından xəbər verir.





Şəhidin tabutuna bükülmüş üçrəngli bayrağımız dəfndən sonra şəhidin hərbçi qardaşına təqdim olundu.

Davamı səh.5-də

# Şəhid eloğlumuzun



Aprelin 2-nə keçən gecə Ermənistan silahlı qüvvələrinin atəşkəsi pozmasının müqabilində Azərbaycan ordusu düşmənə layiqli cavab verərək mühüm strateji döyüş mövqelərini ələ keçirdi. Düşmən ağır itkilər verərək geri oturduldu. Bu zaman milli ordumuzun da qəhrəman zabit və əsgərlərindən yaralananlar, şəhidlik məqamına yetişənlər də oldu.

Tərtər rayonu istiqamətində gedən qanlı-qadalı döyüşlərdə xeyli sayda yaralını döyüş nöqtəsindən çıxarsa da, özü də amansız düşmən gülləsinə tuş gələn həmyerlimiz, əslən Cəbrayıl rayonunun Sarıcallı kəndindən olan sıravi Mahmud Azər oğlu İbrahimovun cənazəsini ayın 8-də neytral ərazidən çıxarmaq mümkün oldu.

Şəhidin dəfn mərasimi aprelin 9-da valideynlərinin məskunlaşdığı Mehdiabad qəsəbəsində məcburi köçkünlər üçün salınmış Qarant yaşayış kompleksində oldu. Dəfn



üçün yaşayış massivinə insan seli axın-axın gəlirdi. Evlərin pəncərə və məhəccərlərində 200-dən çox Azərbaycanımızın üçrəngli bayrağı dalğalanırdı. Bu, döyüşən ordumuzla xalqımızın həmrəylik duyğularının nümayişi idi.

Dəfn mərasimində Cəbrayıl rayon İcra Hakimiyyətinin başçısının vəzifəsi səlahiyyətlərini icra edən Arif Fərzəliyev çıxış edərək şəhid atasına müraciətlə: - Azər, sənin oğlun torpaqlarımızın azadlığı uğrunda canını fəda edərək şəhid olmuşdur, gözün aydın deyirəm, oğulun belə bir mənəvi yüksəkliyi fəth etməsi ata üçün böyük qürur hissi deməkdir. Bu, hər şeydən əvvəl, ailədə və məktəbdə övladın aldığı düzgün tərbiyədən irəli gəlir. Vətənin dar məqamında onu müdafiəyə qalxmaq hər bir vətən övladının mənəvi borcudur. Məhz Mahmud İbrahimov da vətənin azad edilməsi yolunda mübarizəyə atılaraq döyüşlərdə qəhrəmancasına şəhid oldu. Bu gün o, təkcə öz valideynlərinin yox, bütün Azərbaycan xalqının övladıdır. Elə bu gur izdiham da onu göstərir ki, camaatımız öz qəhrəman oğlunu son mənzilə yola salmağa gəlib.

Vida mərasimində Qarabağ Əlilləri və Müharibə Veteranları Cəmiyyətinin sədri Səbuhi Hüseynov, Müdafiə Nazirliyinin məsul işçisi polkovnik-leytenant Yaşar Muradov, Sarıcallı kəndinin ağsaqqal ziyalısı Bəhram Zeynalov, şəhidin atası Azərin dayısı Hacı Aydın Əhmədov, şəhidin atası Azər İbrahimov, Abşeron Rayon İcra Hakimiyyətinin başçısı İradə xanım Gülməmmədova çıxışlar edərək Azərbaycan ordusunun əsgərlərinin yaxın dörd gün ərzində göstərdikləri döyüş rəşadətlərindən danışdılar, ordumuzun cəsur əsgəri Mahmud Azər oğlu İbrahimovun da bu ağır döyüşlərdəki fədakarlığını yüksək qiymətləndirərək, hər bir şəhidimiz kimi onun da qisasının düşməndən alınacağını bildirdilər.

Üçrəngli Azərbaycan bayrağına bürünmüş cənazə yerdən qaldırıldı, şəhidə hörmət əlaməti olaraq şəhidin mübarək nəşi çiyinlərdə aparılaraq xeyli məsafə yol qət edildi. Daha sonra maşın karvanı ”Şəhidlər ölməz, Vətən bölünməz!” nidaları altında izdihamla II Zabrat qəbiristanlığına doğru yola düzəldi.

Şəhidin nəşi məzarıstana gətirildi. Yaxın qohumu olan Zamin Əhmədov burada vida nitqi söylədi, şəhid Mahmudun intiqamının tezliklə düşmənlərdən alınacağını bildirdi. Şəhid Mahmudun əsgər yoldaşlarının açdıqları yaylım atəşi altında cənazə məzara endirildi.

Şəhidin cənazəsinin büküldüyü üçrəngli bayrağımız xatirə olaraq şəhidini atasına verildi.

Cəbrayıl rayon İcra Hakimiyyəti başçısının vəzifəsi səlahiyyətlərini icra edən Arif Fərzəliyev yekun nitqi söyləyərək bildirdi ki, canab Prezident, Ali Baş Komandan İlham Əliyevin apardığı məqsədyönlü uğurlu siyasət xalqımızda vətənpərvərlik ruhunu yüksəldibdir. Elə bunun nəticəsidir ki, yağı düşmənə qələbəmizin ilk ağır zərbəsi vuruldu. Mahmud Azər oğlu İbrahimov da bir əsgər kimi vətən borcunu sədaqətlə yerinə yetirərək, bu yolda canını fəda edib, şəhidliyə qovuşdu. Biz şəhidlərimizin qisasını düşməndən alacağıq.

Bir daha qeyd edək ki, dəfn mərasimində Cəbrayıl rayon İcra Hakimiyyəti ilə birlikdə Abşeron və Binəqədi rayon İcra Hakimiyyətlərinin nümayəndələri də iştirak etdilər.

*Şakir ƏLİFOĞLU*

## Həyat bir güzgü kimi...



Bəhram müəllimlə şəhid Mahmud İbrahimovun valideynlərinin məskunlaşdıqları Mehdiabad qəbəsində məcburi köçkünlər üçün tikilmiş ”Qarant” yaşayış kompleksinə getdik. Şəhidin atası Azər gəlib bizi qarşıladı. Təbiətən kövrək təbiətə malik olan Bəhram Zeynalov evə getməyib həyətdəki adamların arasında qaldı. Nə qədər israr etsək də, yuxarı - evə çıxmadı. Başa düşdük ki, evdə şəhidlə bağlı gedəcək söz-söhbətə, danışılacaq xatirələrə qulaq asmaq ona ağır təsir edəcəyindən içəri daxil olmadı. Mən şəhidin atası ilə liftə girib 4-cü mərtəbəyə qalxdıq. Yaşadıqları mənzilin girişində qapının üstündə üçrəngli ay-ulduzlu Azərbaycan bayrağı asılmışdı. Bu, şəhidin uğrunda canını fəda etdiyi dövlətimizin atributlarından birinin göstəricisi olmaqla, həm də ”Bayraqları bayraq edən üstündəki qana” işarə idi.

Şəhidin - Mahmudun anası Əliyeva Gülbəniz Qüdrət qızı, şəhidin nənəsi Mustafa Çələbinin qızı Hacı Gülətir xanım, bibisi fələyin bu amansız oyununa mat qalmış kimi məlul-müşkül dayanıb durmuşdular. Böyük qardaşı İlkin də sonradan gəlib çıxdı.

Peşəmlə bağlı olaraq söhbəti mən açdım, ailə üçün ağır itki olsa da, şəhidə şərəfli bir tale - az və mənalı bir ömür nəsib olmasından danışdım. Atası Azər dedi ki, oğlumun şəhid olması ilə qürur duyuram. Fəxr edirik ki, övladımız Azərbaycanımızın azadlığı yolunda qurban getdi. O, başımı alçaltmadı, o, bu şərəfli ölümü ilə başımı uca etdi. Mənim başımı el-oba içində uca tutdu oğlum. Bir də ki, itik çox pis şeydir. O qədər cəbhədə həlak olub itkin düşənlərimiz var ki... Oğlumuzun cənazəsini bütün el-oba, bütün Azərbaycan yerdən qaldırdı. O, Azərbaycan oğlu kimi ləyaqətlə, əsgər yoldaşlarının yaylım atəşləri altında torpağa tapşırıldı. Bu, hər kəsə qismət olan xoşbəxt ölüm deyil...

Bəli, ”ölüm var ki, həyat qədər şərəfli, həyat var ki, ölümdən də zəhərli”. Şəhid Mahmud Azər oğlu İbrahimovun da ölümü - şəhidliyi həyat qədər şərəfli oldu.

Söhbət zamanı öyrənirəm ki, Azərgilin Sarıcallı kəndindən qaçqın düşən ailəsi Bayıl qəsəbəsində, sonra isə indi yaşadıqları Mehdiabad qəsəbəsində məskunlaşıb. Həyat yoldaşı Gülbəniz xanımla Cəbrayılda olarkən ailə həyatı qurub. 1990-cı ildə ilk övladları İlkin, 1993-cü ildə isə ikinci oğlu Aqil dünyaya gəlib. Məcburi köçkün düşəndə Aqil qırxlı çağa imiş. Ailənin sonbeşik övladı - üçüncü oğlu Mahmud isə 3 sentyabar 1997-ci ildə Bakı şəhərində anadan olub. Laçın rayonunun 40 saylı orta məktəbində təhsil alıb. Hərdən dayısı oğlu Turalla rəqs dərnəklərinə getsə də, əsas məşğuliyyəti idmanla məşğul olmaq olub. Bölgələrdə Yunan-Roma güləş növü üzrə keçirilən idman yarışlarında iştirak edib, ikinci dərəcəli güləşçi idi. Əsgər yoldaşlarının dediyinə görə, bu ilin 5 mayında respublika birinciliyində iştirak edəcəkmiş...

6 ay idi ki, hərbi xidmətə yollanmışdı. 2015-ci ilin 5 oktyabrında Hərbi Komissarlığın çağırışı əsasında vətən borcunu yerinə yetirmək üçün əsgərliyə yollanan Mahmud Azər oğlu İbrahimov Gəncədə bir müddət hərbi təlim keçdikdən sonra ön cəbhə sayılan Tərtər istiqamətinə yollanır. Aprelin 1-dən 2-nə keçən gecəki atışmalarda ön cərgədə döyüşərək avtomatla düşmənə layiqli zərbələr endirir, eyni zamanda yanında yaralanan döyüşçü yoldaşlarının da atəş nöqtəsindən uzaqlaşdırılmasında canfəşanlıqlar göstərir. Lakin bu zaman özü də düşmənin hədəfindən qaça bilmir, qəhrəmancasına həlak olur. Onun nəşini aprelin 8-də neytral zonadan götürmək mümkün olur. Bakıya gətirilib II Zabrat qəsəbəsində uyuyan nənəsi Afərim xanımın yanında dəfn olunur. Mahmud babasının adını daşıyırdı. Babası hələ Cəbrayılda olarkən dünyasını dəyişmişdi. Sanki şəhid Mahmud həm ailənin sonbeşik övladı - nəvə Mahmud kimi, həm də babasının ruhunun daşıyıcısı olmaq üçün bu dünyaya gəlmiş imiş. Yoxsa belə olmasaydı, o, qəriblikdə uyuyan nənəsi Afərim xanımın məzarını yalqız qoymazdı. Sanki o, nənəsinin yanında həm nəvə kimi torpağa sığınıb uyudu, həm də babası Mahmud kişinin ruhunun daşıyıcısı kimi nənəsinə babasının əvəzində bir həyan olmaq üçün nənəsinin məzarı ilə yanaşı - qoşa dəfn olundu. Çünki Mahmudun təbiətində bir kişiyanə ciddilik də var idi. Sanki o, təkcə uşaq, yeniyetmə olmadığını, həm də ağsaqqallıq nümunəsi olan babasının ciddi xarakterini yaşatmaq üçün ağırtəbiətlik nümayiş etdirəcəyini də özlüyündə düşünüb-daşınıbmış. Bir də Bəhram müəllimlə söhbətdən məlum oldu ki, kənddə-kəsəkdə olduğumuz bəxtəvər çağlarımızda babası Mahmud ilə nənəsi Afərim xanım elin, obanın xeyir-şər işlərində həmişə qoşa gedib-gələr, camaatın işinə birgə can yandırarmışlar. Tale onların məzarlarını bir-birindən ayrı salmışdısa da, bu birgə yaşama-



# dəfn mərasimi



larının rəmzini elə bil ki, nəvə Mahmud şəhidliyə qovuşub nənəsinin yanında torpağa tapşırılmaqla və məzar daşından boylanacaq yan-yanaşı, qoşa şəkilləriylə təzədən tamamladı.

Görünür tale məsələsi İlahi tərəfindən proqramlaşdırılmış pozulmaz alın yazısıdır.

İnsanın adı ilə taleyi arasında uyğunluqların olması da elə bu tale məsələsinə bağlıdır. Adqoyma özü də yəqin ki, İlahinin vəhyi kimi ad qoyan adamın ağlına-ruhuna İlahi tərəfindən hökm kimi verilir və nəticədə körpəyə qoyulan ad gələcəkdə onun ömür yolunun uyğun təcəssümünə çevrilir. Fikir verin, ailədə 3 oğul övladı var: İlkin, Aqil və sonbeşik olan, baba adının daşıyıcısı olan Mahmud. Niyə məhz ailənin birinci, ya ikinci oğluna yox, məhz üçüncüsünə babasının adını veriblər. Axı kim hardan bilərdi ki, ailədə birinci övladdan sonra ikincisi də doğulacaq, özü də məhz qız uşağı yox, oğlan. Yaxud da ikinci oğlan övladından sonra üçüncü övlad da oğul olacaq və ona babasının adı qoyulacaq, bundan sonra da ailənin sonuncu övladı olmaqla sonbeşik missiyasını da babasının addaşı (adaşı) kimi Mahmud yerinə yetirəcək. Və sonda da şəhidlik məqamına yetişib yüksələcək. Bəli, bütün bunlar insanın əl apara bilməyəcəyi tale işləridir ki, hamısı da İlahinin nidası, vəhyi, hökmü ilə baş verir.

Çoxdu İlahinin sirləri. Bu sirləri ilahi intuitiv duyğu kimi insanın ruhuna-canına da yeridir bəzən insanın özündən ixtiyarsız. Yoxsa belə olmasaydı, Mahmud tez-tez güzgüyə baxıb dəfələrlə özü-özünün şəklini çəkib, bir həzin xatirə kimi öz əksini saxlayardımı özündən sonra valideynləri üçün, doğmaları üçün. Bununla nə demək istəyirmiş, bununla ölümünün ona əvvəlcədən agah olduğunumu bir mesaj kimi vermək istəyirmiş Mahmud?. Bununla həyat bir güzgüdür - hər gələn baxar gedər, elə mənim kimi demək istəyirmişmi? Üstüörtülü bir formada valideynlərinə təskinlikmi vermək istəyirmiş; necə ki, dünyanın yiyəsi - hakimi İsgəndər Zülqərneyn ölərkən anasına vəsiyyət - sifariş edir ki, hər kimin dərdi olmasa, mənim ehsanımı ona verərsiniz, yeyər. Nəticədə ana hər kəsin özünə görə bir dərdi olduğunu görüb oğlunun bununla ona böyük həyati mətləbi - dünyanın olumu kimi ölümü də var həqiqətini çatdırdığını başa düşür və bundan sonra özündə səbr tapır, aram olub sakitləşir.



Və yaxud da Mahmud öz telefonunun ekranında kiminsə misralarını elə özünün alın yazısı kimi səciyyələndirib yazmazdı ki:

***Vəsiyyət edirəm mən ölən zaman***
***Gözümü istəkli ANAM bağlasın.***
***Soyuq məzarımı dostlarım qazsın,***
***Yuyulub kəfənə qoyulan zaman***
***Başımın üstündə qardaş ağlasın.***
***Hamı çəkilib gedəndən sonra***
***Məzarım üstündə sevgilim qalsın...***

Bəli, insan taledən qaça bilməz. Şəhidlik də bir taledir - şərəfli ölümsüzlük taleyi!..

***Şakir Albalıyev***

# RUHİNİN "ŞƏHİDLİK DASTANI"

*Əvvəli səh. 3-də*

Şəhidin atası Əşrəf kişinin, anası Təranə ananın məğrur dayanışını, qürurlu baxışlarını sözlə ifadə etmək çox çətindir.Yaxşı deyiblər: ”Hər oğuldan oğul olmaz, doğan ana ana gərək...” Mənim müşahidə etdiklərim, həmyerlimiz Feyziyyə Sultanmuradın da nəzərindən qaçmayıb: ”...Bilmirəm bir şəhid anasının toxtaqlığındanmı danışım sizə, bir şəhid atasının sınmazlığındanmı. İlahi, insan nə qədər qürur duyarmış illərlə böyüdüb başa çatdırdığı balasının şəhid olmasından.İlahi, bir şəhid atası necə deyə bilər ki, döyüşdə yaralanıb hal-hazırda hərbi hospitalda müalicə alan oğlum da, mən də Vətənə qurban olaq, təki bu Vətən bölünməsin...İlahi, bir şəhid anası necə qürurla dayanıb ağlamayaq deyə bizə təsəlli verər?...”.



Ruhin Əşrəf oğlu öz canını fəda edərək, qanı ilə bir dastan yazdı: ”Şəhidlik dastanı”. El-oba, yaxın-uzaq bu dastanı vərəqləməyə cəm oldu.Onun yalnız bir səhifəsini çevirə bildik.Şəhidin qanı ilə yazılan bu dastandan bir-neçə kəlmə dilə gətirdik. ”Şəhidlik dastan”ı səhifə-səhifə vərəqlənəcək, yaddaşlara yazılacaq.Hər şeyə qadir olan Əlahəzrət Söz də bu qəhrəmanlıq dastanı önündə aciz qalacaq.Necə ki, aciz qaldı da...

Qəbiristanlıqdan uzaqlaşsam da, içimə axan, gözümdə gilələnən yaşı balalarımız,anabacılarımiz görməsin deyə baxışlarımı yayındırıb-gizlədirəm. İçimdə bir təsəlli gəzirəm... Əsən soyuq külək təsəlli üçün nə isə pıçıldayır: ”Torpağa qoyular şəhid kürəyi, şəkli könüllərin aynasındadı...” (İlyas Tapdıq). Uzaqlarda bayatı deyir kimsə. Deyəsən, yaz yağışıdı:

*Şəhidi qocaltmaz illərin yaşı,*
*Şəhid yatan torpaq oyaqdı, yatmaz!*
*Şəhidi ağlasın bahar yağışı,*
*Ona anaların göz yaşı çatmaz...*

***HİDAYƏT SƏFƏRLİ,***
*Şair-publisist, Azərbaycan Jurnalistlər Birliyinin üzvü, Qabaqcıl Təhsil işçisi*

# ”Xudafərin” FK (Cəbrayıl) respublika birinciliyinə vəsiqə qazandı

”Xudafərin” Futbol Klubu 2013-cü ilin sentyabr ayından İnsan Kapital Mərkəzinə üzv olan bir qrup cəbrayıllı ziyalı və gənclərin təşəbbüsü və maliyyə dəstəyi ilə yaradılıb.Bu klubun yaradılmasında məqsəd böyük futbol ənənələri olan Cəbrayıl futbolunun keçmiş şöhrətini özünə qaytarmaq, ölkə futbolunun inkişafına töhfə verməkdir. İllərlə peşəkar futboldan uzaq düşən bir mühitdə bu arzuları gerçəkləşdirmək üçün uşaq futbolundan başlandı.Klub ilk məşqlərinə 2014-cü ilin may ayından başlamasına baxmayaraq, qısa bir müddətdə üç yaş qrupunda komandalar təşkil olundu və AFFA-nın ”Uşaq futbolunun inkişafı” çərçivəsində təşkil etdiyi yarışlarda iştirak üçün müraciət olundu.Yarışların debütantı olmasına baxmayaraq, həmin il 3 yaş qrupunda (U-12, U-13, U-14) iştirakçı hüququ qazanıldı.Keçirilən yarışlarda bu komandalar yaxşı nəticələr qazanaraq 10-12 komanda arasında müvafiq olaraq 4, 6, 5-ci yerləri tutdular. Bu müvəffəqiyyət komandaların gələcək uğurlarından xəbər verirdi. Nəhayət, 2015-2016-cı illər mövsümündə artıq bütün yaş (U-10, U-11, U-12, U-13, U-14) qruplarında mübarizəyə qoşulan ”Xudafərin” FK yüksək nəticələri ilə azarkeşlərini sevindirdi. U-12, U-13, U-14 yaş qruplarında olan komandalarımız ikinci dövrəyə vəsiqə qazandılar və hər üç komanda layiqli mübarizə apardı.



U-13 yaş qrupu komandası isə uşaq futbolunda Cəbrayıl rayonu adına tarix yazaraq Azərbaycan çempionatının Play off mərhələsinə vəsiqə qazandı. Bu mərhələdə əvvəlcə ”Şirvan” komandası üzərində 4:0 hesabı ilə qələbə qazanan ”Xudafərin”, Region birinciliyinin favoriti olan ”Ağsu” komandasına 2:1 hesabı ilə qalib gələrək respublika birinciliyinə yüksəldi. ”Xudafərin”in rəqibləri arasında ”Neftçi”, ”Qəbələ”, ”Qarabağ”, ”İnter” kimi güclü rəqiblər var.Hazırda komandamız 1/8 final mərhələsində oyununu davam etdirir.Komanda məşqlərini köçkünlər üçün Biləsuvar rayonu ərazisində salınmış qəsəbədə keçirir.Komandanın direktoru Nazim Fətullayev və baş məşqçi Yasif Göyüşov olmaqla klubun 2 çalışdırıcısı və 5 yaş qrupunda 88 futbolçusu var. 1/8 final mərhələsində rəqibimiz çempionatın favoriti ”Qarabağ” (Ağdam) komandası oldu.İmişli şəhərində keçirilən ilk görüşdə komandamız 2:1 hesabı ilə qələbə qazandı.Cavab qarşılaşması Bakı şəhərində, Dalğa Arenada keçiriləcək.

Qazanılan uğur münasibətilə klubun rəhbərliyini, məşqçi heyətini, futbolçularımızı, azarkeşləri ürəkdən təbrik edir, doğma komandamıza növbəti oyunlarda da uğurlar arzulayırıq.Uğur olsun, ”Xudafərin” FK!

***HİDAYƏT SƏFƏRLİ***

# ZİYALILIQ VƏ VƏTƏNPƏRVƏRLİK RUHUNDA

**Pedaqoji elmlər doktoru Mobil Aslanlı Huntürkün BDU-nun filologiya fakültəsi Elmi Şurasının qərarı ilə ”Dədə Qorqud” eposunda fiziki tərbiyə mədəniyyəti” (”Bakı Universiteti” nəşriyyatı, 2016) adlı monoqrafiyası elmi-pedaqoji ictimaiyyətin ixtiyarına verilmişdir. Kitab mərhum akademik Tofiq Hacıyevin, AMEA-nun müxbir üzvü, professor Yaqub Mahmudovun, pedaqoji elmlər doktoru, professor Əjdər Ağayevin rəyləri əsasında, Dövlət Mükafatı laureatı, Əməkdar elm xadimi, professor Məhərrəm Qasımlının elmi redaktorluğu ilə nəşr olunmuşdur.**

Mobil İsmayıl oğlu Aslanlı ”Kitabi-Dədə Qorqud” dastanını bir pedaqoq-alim kimi elmi-nəzəri təhlil süzgəcindən keçirmiş, ayrı-ayrı boylardan çıxış edərək orada qoyulan fiziki tərbiyə məsələlərinin bir etnik mədəniyyət hadisəsi olduğunu müəyyənləşdirmişdir. Müəllif kitabı yazdığı ön sözdən sonra ”KDQ” mətnindən gələn bir atalar sözünü başlığa çıxararaq yazır: ”Yalqız igid alp olmaz!” Bu ifadə ”Bir gül ilə bahar olmaz” deyimimizlə də həmahəng səsləşir. Daha sonra Mustafa Kamal Atatürkün bir deyimini epiqraf gətirir: ”Türk budur: ildırımdır, qasırğadır, dünyanı aydınladan günəşdir!” bununla da müəllif tədqiqat obyekti kimi götürdüyü Dədə Qorqud kitabının bir oğuz-türk abidəsi olduğuna dolayısı yolla da olsa işarə vurmuş, bununla da ”KDQ”-də fiziki tərbiyə mədəniyyətindən bəhs edildikdə məhz türklərə, azərbaycanlılara xas olan bir etnik-mədəni dünyagörüşündən söhbət gedildiyi xatırladılmışdır. Bəri başdan tədqiqatçı dastanla bağlı ümumi qənaətlərini ifadə edərək yazır: ”Abidə dövrün geniş tarixi - etnoqrafik məlumatları ilə, canlı həyat müşahidəsindən doğan dolğun təsvirlərlə, habelə tərbiyə-sağlamlıq motivləri ilə sıx bağlı olan adət-ənənələr və ritualllarla çox zəngindir”.

Beləliklə, fiziki tərbiyə məsələlərinin abidə mətnində bir adət-ənənə, mərasim şəkli almaqla geniş kütləvilik qazandığını qabardan müəllif yeri gəldikcə fikirlərini dastanın dilinə müraciət əsasında əsaslandırıb isbata yetirir. Eyni zamanda bu fiziki tərbiyənin hərbi vətənpərvərliklə çulğaşıb vəhdət təşkil etdiyini də, bunun vətənin müdafiəsində müstəsna əhəmiyyət daşıdığını da diqqətə çatdırmaqla qeyd edir ki, ”Oğuzlarda ciddi hərbi intizam vardı. Yurdun müdafiəsi ilə bağlı bütün məsələlərə xanlar xanı Bayandır xanın çağırdığı hərbi məclisdə baxılırdı. Oğuz bəyləri yurda rahatlıq verməyən yağı düşməndən qisas almaq üçün hərbi səfərə çıxmaq istədikdə hökmən xanlar xanı Bayandır xanın yanına gedir, üzlərini yerə qoyub icazə istəyirdilər. Başqa sözlə, oğuz qoşunlarında dəmir nizam-intizam və yüksək qayda-qanun hökm sürürdü” (s.9).

Bütün bu kimi mülahizələr onu göstərir ki, Mobil müəllim tədqiqə çəkdiyi ”Kitabi-Dədə Qorqud” abidəsinin işığında oğuzlarda tarixən mövcud olmuş fiziki tərbiyə və hərbi vətənpərvərlik mədəniyyətinin kökünün çox qədimlərdən gəldiyi görünür. Məhz belə bir sabitləşmiş ənənənin məntiqi nəticəsi bu günkü müstəqil respublikamızın gənclərinin simasında özünü təsdiqə yetirir. Elə bu məqama işarə ilə də tədqiqatçı göstərir ki, ”müstəqillik yollarına qədəm qoyan anlardan bu yana xalqımızın milli özünüdərk və milli özünü təsdiqinə, zəngin və qiymətli ənənələrinin bərpasına xüsusi diqqət yetirilir Bütün türk gəncliyinin tərbiyəsində böyük əhəmiyyət kəsb edən adət və ənənələrimizin əksəriyyəti özünün ilkin rişələrini ”Kitabi-Dədə Qorqud” dastanlarından alır. Bu müqəddəs kitab hər bir türkü dönüb geriyə baxmağa, bu gün qiymətli tərbiyə vasitəsi hesab edilən ənənələrin tarixi köklərini öyrənməyə, tarixin qalın laylarını qaldırıb Dədə Qorqud ənənələrindən istifadə etməyə sövq edir” (s.10).

Göründüyü kimi, pedaqoji elmlər doktoru Mobil Aslanlı həm də bir pedaqoq kimi ”Kitabi-Dədə Qorqud” kitabının müasir dövrdə gənclərimizin hərbi-vətənpərvərlik ruhunda tərbiyə olunmasında bir əhəmiyyətli mənbə olduğunu əsaslı şəkildə açıb göstərir. Bu gün döyüşçülərimizin hərbi qəhrəmanlıq əhval-ruhiyyəsinin köklərinin daha qədimlərdən, ulu babalarımızın qan-gen yaddaşından qaynaqlandığını əsaslandırır. Deməli, başqa sözlə, buradan həm də o qənaət hasil olur ki, ”KDQ” abidəsi özü özlüyündə bir Oğuz cəmiyyəti modelidir. O cəmiyyət ki, burada hərbi-siyasi infrastruktur da öz layiqli səviyyəsi ilə burada əks olunub. Ölkənin - Oğuz kosmosunun ərazisinin hərbi müdafiə qüdrəti də, ordusunun hərbi-taktiki baxımdan silahlanma və təşkilatlanma forması da bədii mətn hadisəsi kimi özünü göstərir.

Bəs Mobil Aslanlı Huntürk bir pedaqoq kimi ”KDQ” dastanında nəyə görə məhz fiziki tərbiyə məsələlərini araşdırmağı ön plana çəkmişdir sualına biz monoqrafiyanın hər səhifəsində demək olar ki, cavab tapırıq. Çünki tədqiqatçı, hər şeydən əvvəl, pedaqoqdur və o, bunun sirrini didaktik-tərbiyəvi amillərlə bağlayır, eyni zamanda tərbiyənin əsasında kamil, vətənpərvər insan yetişdirilməsi prinsipinin dayandığını açıb göstərir: ”Dastanda tərbiyə mövzusu ilə bağlı fikir və mülahizələr onun hər bir boyunda özünü əks etdirir. İstər hikmətli öyüd və nəsihətlər, dərin müdrik söhbətlər, hünəri, fərasəti, fiziki və hərbi məharəti nümayiş və təsdiq etmək üçün mütəmadi keçirilən yarışlar, rituala, ənənəyə çevrilən bu mərasimlərin pedaqoji əhəmiyyəti onda idi ki, oğuz cavan mərdləri bu tədbirlərdə fiziki, hərbi bilik, bacarıq vərdişlərinə daha dərindən yiyələnir və təkmilləşirdilər.

İnadkarlıq, qətiyyətlilik, dəyanət və yüksək fiziki hazırlıq igidlik göstərmək üçün ən başlıca atributlardan hesab olunur. Ad qazanmaq üçün yüksək fiziki inkişaf, fiziki dözüm, cismani möhkəmlik mütləq idi. Odur ki, dastanda adverme mərasiminin keçirilməsinə məhz belə şir şücaətli, qaplan ürəkli alpların daha çox mənəvi haqqı vardır” (s.26).

Bir daha görürük k, M.A.Huntürk fiziki tərbiyə mədəniyyətini önə çəkib qabartmaqla bir daha bu fiziki hazırlıq məsələsinin insanın fiziki və əqli inkişafında müstəsna əhəmiyyət daşıdığını açıb göstərir, habelə fiziki gücün bir mənəvi yaşam vasitəsi olduğunu da, həyatda hünər göstərib ad qazanma üçün bir tutalqa - vasitə olduğunu sübuta yetirir. Belə ki, oğuz gəncləri bir hünər göstərməsə, adsız böyüyərlər, hünər göstərmək üçünsə gərəkdir ki, yetkin yaşa və fiziki-iradi keyfiyyətlərə sahib olasan. Fiziki-cismani möhkəmlik üçün isə fiziki tərbiyə və idman hərəkətlərinin, vərdişlərinin yerinə yetirilməsi istisnasız vacib şərtlərdən sayılır. Biz uşaq olanda, məktəbli yaşlarımızda həmişə öz yaşıdlarımızla birgə ucadan: ”Kim sevirsə idmanı, həmişə safdır canı”, - deyə xorla oxuyardıq. Beləliklə, idmanın, fiziki tərbiyənin insana cismani cəhətdən bir sağlamlıq, iradəlilik keyfiyyəti bəxş etdiyini düzgün anlayırdıq. Əslində bu gün də məktəblərimizdə tədris olunan idman - fiziki tərbiyə fənlərinin də tədrisində məqsəd gəncləri fiziki baxımdan və həm də mənəvi cəhətdən sağlam ruhda, sağlam bədən quruluşu ilə böyütməkdən ibarətdir. Bu sağlamlığın da əsası insanı vətənpərvərlik ruhunda yaşamağa və qəhrəmanlıq göstərmək gücünə səfərbər edən mühüm amildir. Çünki sağlam, güclü, iradəli, çevik olmasan, vətəni qorumaq uğrunda düşmənə tutarlı zərbə endirmək iqtidarında ola bilməzsən.




Yeri gəlmişkən, elə burada da məsələnin həyati baxımdan gerçək olduğuna dair bir haşiyə də çıxmaq istərdim. Mən hələ Cəbrayılda olarkən - 1992-1993-cü illərdə Azərbaycan Milli Ordusu sıralarında döyüşərkən, döyüşçü yoldaşlarımızla həmişə yarızarafat-yarıgerçək deyə-gülə danışardıq ki, biz vətənin qurbanlıq əsgərləriyik. Yəni döyüş başlanandan-başlanana hücuma atılarkən özümüzü vətənə fəda etməyə hazır bir ruhda kökləyərdik, şəhid olmaqla vətən torpağına vətənin azadlığı uğrunda qurban getməyə özümüzü mənəvi baxımdan hazırlayardıq. Əgər belə olmasaydı-mənəvi-ruhi cəhətdən döyüşə vətənpərvər ruhda atılmasaydıq, şəhidlik məqamına hazır olmasaydıq, onda düşmən üzərində qələbə çalmaq da, düşmən qarşısında tab gətirmək də olmazdı. Deməli, hərbi vətənpərvərlik ruhu hər bir əsgərdə olmalıdır. Bu, öz yerində. Amma bununla yanaşı fiziki-cismani tərbiyə vasitələri də mühüm şərtdir. Ona görə ki, düşmənə sarsıdıcı zərbə endirmək üçün yorulmaz, mətin iradi keyfiyyətlərə də yiyələnmək, fiziki cəhətdən sağlam gücə-enerjiyə sahib olmaq da zəruridir. Bunun üçün də fiziki tərbiyə və idman hərəkətlərini hələ uşaq yaşlarından, məktəbli çağlarından bədənə alışdırmaq lazımdır. Bir də görürsən ki, ictimaiyyət arasında şəhid gedən əsgərlərimizin fiziki-cismani görünüşünə rəğmən belə bir fikir səsləndirirlər ki, nədənsə bu şəhidlər hamısı elə bil ki, sayseçmə oğullardır. Sanki düşmən hədəf seçib ən şəxsiyyətli, gözəgəlimli əsgərlərimizi döyüşdə nişan alır - deyirik. Bu, doğrudan da, belədir. Amma niyə? Niyəsi odur ki, şəhid gənclərimiz vaxtında-vədəsində fiziki tərbiyə və idman hərəkətlərilə məşğul olub, canlarının-bədənlərinin sağlam və mətin iradəli olmalarına çalışıblar. ”Sağlam bədəndə sağlam ruh olar” deyimində vurğulandığı kimi, məhz sağlam, fiziki cəhətdən yetkin orqanizmə malik olan gənclərimiz sağlam vətənpərvərlik ruhu ilə də yağı düşmən üzərinə döyüşə atılıb canlarını fəda etməklə şəhidlik mərtəbəsinə yüksəlirlər. Bax budur vətən şəhidlərinin hamısının sağlam cüssəli, polad iradəli olmalarının sirri. Hələ bir analogiya da aparım ki, qurbanlıq üçün hər heyvan seçilmədiyi kimi, vətən fədailəri də sayseçmə igidlərdən ibarət olur. Necə ki, İsmayıl qurbanı deyilən Qurban bayramında qurbanlıq üçün nəzərdə tutulan mübarək heyvanın sağlamlığı üçün şərtlər nəzərdə tutulur, bax eləcə də vətənə qurban gedən əsgərlərimiz də yüksək mənəvi keyfiyyətlərə malik olmaqla yanaşı sağlam bədən quruluşuna malik olurlar. Çünki sağlam əqidəli və fiziki cəhətdən də sağlam iradəli, mətin, dözümlü olmalıdırlar ki, döyüş zamanı düşmənə layiqli zərbələr endirə bilsinlər və yeri gələndə də həmin məqamda öz canlarından keçməklə də vətənə qurban getsinlər. Bax budur qurbanlıq (şəhidlik) fəlsəfəsinin daxili sirri! Xüsusi təyinatlı döyüşçü dəstələrində, çevik hərbi (və ya polis) alayında xidmət edənlərin də fiziki bədən quruluşu baxımından güclü olmalarının da əsas səbəbi məhz bu amillərlə xarakterizə olunmalıdır.

Elə bu söylənilənlərə nəzərən də pedaqoji elmlər doktoru Mobil Aslanlı Huntürkün ”Kitabi-Dədə Qorqud” dastanında qaldırdığı problemin mahiyyəti aydın olur. Belə bir monoqrafiyaya imza atmaqla müəllif təkcə bir pedaqoq-alim kimi üzərinə düşən böyük missiyanı yerinə yetirməmiş, həm də bir vətənpərvər ziyalı kimi gənclərimizin mənəvi və fiziki cəhətdən sağlam böyümələri üçün fiziki tərbiyə mədəniyyətinin mühüm rol oynadığına diqqəti çəkməklə bir vətənpərvərlik qayəsini nümayiş etdirmişdir. Bunu müəllifin nəticə hissəsindəki gəldiyi ümumi qənaətlərdən də əyani şəkildə görmək olar:

”Qazan xan, Qaraca Çoban, Buğac, Beyrək, Qanturalı, Dəli Domrul kimi neçə-neçə məğrur türk bahadırlarının obrazlarını səciyyələndirən fiziki mədəniyyət motivləri aşağıdakılardır:

- dastan qəhrəmanları azman bədənli, heybətli görkəmləri olan, qədd-qamətli, enlikürəkli, polad sinəli, möhkəm əzalı, əyilməz dizli, burulmaz biləkli, qulac qolları, bükülməz yaraşıqlı ərənlərdir;

- bu boy-buxun və fiziki qüdrət sahibləri güclü, davamlı, cəld, mətin iradəyə malik əzmkar və məğrur pəhləvanlardır;

- türk ərənləri tarixən fiziki mədəniyyət elementlərini dərindən mənimsəyən, yeni qılınc döyüşündən, ox atmaqdan, nizə süzdürməkdən, gürz oynatmaqdan, at səyirtməkdən min bir fənd və çeviklik tələb edən gərgin güləş yarışlarından hünərlə çıxan bahadırlardır;

- həmin intəhasız fiziki əzəmətə malik bahadırlar cismani sağlamlıq mücəssəməsi olmaqla yanaşı, həm də ağıllı, səbatlı, etibarlı, xeyirxah və sadə qəlbli xalq qəhrəmanlarıdır;

Xalq igidliyin, fədakarlığın, məğrurluğun və yenilməzliyin bir növ nizamnaməsini də dastanlarda belə ifadə etmişlər.

**1.** Yeniyetmə və gənclərin ahəngdar inkişafında, onların qəhrəmanlıq ruhunda böyüməsində fiziki tərbiyənin müstəsna əhəmiyyətini önə çəkmək;

**2.** Bədii ədəbiyyat, xüsusilə folklor nümunələrindən qaynaqlanaraq uşaq və gənclərin yetişməsində, onların vətənpərvər ruhda tərbiyə olunmasında, ələlxüsus qürurlu və qeyrətli övladlarımızın əsl türk alp ərənləritək formalaşmasına nail olmaq;

**3.** Azərbaycan əsatir, əfsanə və rəvayətlərimizdə, habelə nağıl və dastanlarımızda ulu əcdadlarımızın ruhuna, cisminə hopmuş intəhasız fiziki qüdrət, iradi əzəmət nümunələrini araşdıraraq ərsəyə gətirmək;

**4.** Şifahi xalq ədəbiyyatı nümunələrində, o cümlədən dastanlarımızda Vətən, torpaq qeyrəti çəkən, istilaçı basqınlara qarşı igidcəsinə hünər göstərən alp ərənlərin türkçülük məfkurəsini, vətənsevərlik hissini, həmçinin iradi-əxlaqi, mənəvi-etik xüsusiyyətlərini mühüm tərbiyə nümunəsi kimi ortaya çıxarmaq;

**5.** Qəhrəmanlıq dastanlarımızda milli idman oyunlarını (Çovkan, qəpəq, cıdır, şatır və s.) habelə ovçuluq peşəsini, zorxana oyunlarını həmin dövrün düşmən hücumlarına qarşı hərbi-fiziki məşqi kimi dəyərləndirmək;

**6.** Folklorumuzla zəkavətli, fəzil, müdrik ulu babalarımızın böyük loğman, səriştəli təbib kimi huşyarlığı, xələflərinin gümrah, qıvraq və cüssəli bir nəsil tək təşəkkül tapması üçün fiziki tərbiyə vasitələrindən qədərincə bəhrələnməyi tövsiyə etmişlər. Bunlar arasında təbii və gigiyenik amillərin, sağlam həyat tərzinin zəruriliyini şərtləndirən mühüm amil kimi əməl edilməsi mənəvi-ictimai tələbatımıza çevrilməlidir;

Tədqiqatda ulu sələflərimizdən bizlərə mənəvi yadigar qalan və onların şəxsi nümunəsi əsasında yaşadıqları sağlam həyat tərzi keçirmək, habelə zərərli vərdişlərdən (tütün, alkoqol, narkotik vasitələr və s.) sapındırmaq, onları sağlam həyat tərzi yaşamına və fiziki tərbiyə məşğələlərinə cəlb etməklə müasir nəslin tərbiyəsində mühüm mənbə kimi əməl olunması mənəvi tələbatımıza çevrilməlidir”.

Ən ümdə məsələ - gənclərimizin əqli və mənəvi, həm də fiziki təkmilləşməsi sayəsində işğal olunmuş Qarabağım, Dərbəndim, Borçalım da daxil olmaqla ləngimədən İrəvanımızı, Zəngəzurumuzu, Vedibasarımızı, Basarkeçərimizi, Dərələyəzimizi, Göyçəmizi geri almalı, ulu və uca Şah Xətainin imperiyası dövründə mövcud olan və bizlər üçün qəribsəyərək ürəyi qabar bağlamış 3,3 mln km2 torpağımızı mənfur düşmənlərdən azad etmək üçün yubanmadan mücadiləyə qalxmalıyıq!..”

Pedaqoq-alim və vətənpərvər ziyalılıq missiyasının gerçəkləşdirildiyi bu əsər daşıdığı elmi-kütləvi dəyərinə görə müəllifin çox böyük uğurudur və bu uğura imza atdığına görə Mobil müəllimə çox sağ olun deyib, yeni-yeni yaradıcılıq naliyyətləri arzulayıram!

*Şakir ƏLİFOĞLU,*
*filologiya üzrə fəlsəfə doktoru, dosent*

# Ədəbi-bədii gecə



18 apreldə Biləsuvar rayonu ərazisindəki 4 saylı qəsəbədə fəaliyyət göstərən rayonun İsmayıl Quliyev adına Böyük Mərcanlı kənd tam orta məktəbində Azərbaycan Yazıçılar İttifaqının üzvü, Minvəçevir şəhər Yazıçılar Birliyinin sədri, gözəl qələm ustası, vətən nisgilli şair, həmyerlimiz İsmayıl İmanzadənin ”Ömürdən uzun gecə” adlı kitabının müzakirəsi keçirilmişdir.

Ədəbi-bədii yaradıcılıq gecəsini giriş sözü ilə məktəbin direktoru Fəxrəddin Rəhimov açaraq şair İsmayıl İmanzadənin həyat və yaradıcılığına dair məlumat verdi, onun keçdiyi mənalı ömür yolundan, yazdığı vətənpərvərlik şeirlərinin oynadığı mühüm roldan, həmçinin İsmayıl İmanzadə ilə bağlı xatirələrindən danışdı.

Məktəbin Azərbaycan dili və ədəbiyyatı müəllimləri, şairinin yaxınları Rövşən İmanov və Elçin Pirməmmədov şairin həyat və yaradıcılığından söz açıb yaşadığı məcburi köçkünlük həyatından və bu qaçqınlıq-köçqünlük nisgilinin onun şeirlərində öz əksini tapmasından geniş şəkildə söhbət açmışlar.



Tədbirdə iştirak edən Cəbrayıl rayon İcra Hakimiyyəti başçısı aparatının məsul işçisi Mayil Əliyev belə bir gözəl tədbirin keçirilməsində xidmətləri olan məktəb rəhbərliyinə, həmçinin şairin ünvanına rayon İcra Hakimiyyətinin təbriklərini çatdırmış və gələn il şairin yaradıcılıq gecəsini doğma Cəbrayılımızda keçirilməsini arzulamışdır.



Yubiley tədbirində məktəbin təlim-tərbiyə işləri üzrə direktor müavini Əvəz İbadov çıxış edərək şairin şeirləri ilə bağlı təəssüratlarını paylaşmış, onun vətənpərvərlik ruhlu əsərlərini gənc nəslin təlim-tərbiyəsində əhəmiyyətindən danışmışdır.



Məktəbin şagirdləri Rəna Həsənzadə, Səbinə Aslanova, Günel Quliyeva, Kənan Ağayev, Könül Quliyeva, Şahanə Quliyeva, Leyla Hətəmxanlı və başqaları şairin şeirlərindən, bayatılarından nümunələr səsləndirmişlər.

Ədəbi-bədii tədbiri məktəbin direktoru Fəxrəddin Rəhimov yekunlaşdırdı.

*”Xudafərin”*

# NƏSİMİ ƏDİBLƏRİN GÖZÜ İLƏ




Filologiya üzrə fəlsəfə doktoru Süleyman Alıyevin 1980-ci ildə yazdığı tədqiqat xarakterli "Çağdaş poeziyamızda Nəsimi" əsəri 2014-cü ildə "Təknur" nəşriyyatında işıq üzü görmüşdür. XIV əsr klassik Azərbaycan poeziyasının ünlü nümayəndəsi şair-filosof İmadəddin Nəsimi yaradıcılığına və şəxsiyyətinə işıq tutan əsərləri bir məcraya salıb, onlara dair əhatəli fikir bildirmək müəllifin əsas qayəsini təşkil edir. Sarı Aşığın bayatısında, Aşıq Ələsgərin təcnisində Nəsimi adının dərin rəğbətlə xatırlandığını diqqətə çəkən tədqiqatçı əsas yeri Xalq şairi Qabil İmamverdiyevin "Nəsimi" poemasına verərək yazır: "…İ.Nəsiminin ölməz obrazını "Nəsimi" adlı tarixi romantik poemasında canlandıran sənətkar əsər üzərində on il işləmişdir. Üç hissədən ibarət poemanın birinci hissəsi 1970, ikincisi 1972, üçüncüsü isə 1974-cü ildə çap edimişdir. 1980-ci ildə bütöv kitab halında nəşr edilmişdir".

Beləcə, "Nəsimi" poemasının əvvəlcə yazılma tarixinə işıq salan tədqiqatçı daha sonra poemanın məzmunu və sənətkarlıq xüsusiyyətlərinə də toxunur, anadilli poeziyamızda fəlsəfi şeirin əsasını qoyan Nəsimi ilə bağlı düşüncələrini şair Qabilin də poemasına müraciət işığında ortaya qoyur: "Nəsimi sufiliyin bəzi müddəalarından tam uzaqdır. Çünki sufilər real varlığı inkar edirlər, insanı tərkidünyalığa, asketizmə səsləyirlər. Poemada göstərilir:

***Mənə tərkidünya deyirsə hər kim***
***İnanma, övladım! İnanarmısan?***
***Yalan sanarmısan, puç sanarmısan***
***Mənim əqidəmi, etiqadımı?!***

Nəsimi heç də sufi deyildir. Çünki bu, şairin dünyagörüşü və yaradıcılığı üçün həlledici və əsas cəhət deyildir. Hələ Yaxın Şərq ölkələrində orta əsrlərdə (xüsusilə X-XVI əsrlərdə) geniş yayılmış sufizm ideoloji cərəyanı Nəsimiyə az da olsa təsir etmişdi. O, bu cərəyanın mütərəqqi tərəfindən istifadə etməklə sufizm pərdəsi altında real həyat hadisələrini əks etdirmişdir" (s.14).

Beləcə, Nəsimi ilə bağlı dəyərli fikirlər sərgiləyən Süleyman Alıyev eyni zamanda Nəsimi ilə bağlı digər müəlliflərin də söylədiklərinə diqqət ayırır: "Lev Ozerov deyir: "mən Nəsimini dünya lirikasının Koperniki adlandırıram. Nəsimidən 100 il kiçik olan Kopernik təsdiq edirdi ki, kainatın mərkəzi Yer deyil, Günəşdir. Böyük astronomun günəş haqqında dediklərini Nəsimi 100 il əvvəl insan haqqında demişdir. "Biz M.Qorkinin qəhrəmanlarının məşhur "İnsan - məğrur səslənir" sözlərinə hələ ondan 6 əsr əvvəl yaşamış Nəsiminin misralarında rast gəlirik" (s.50).

Süleyman müəllim: "Nəsiminin amalı, əqidəsi bizə Babəki xatırladır. Bunlar bir-birinə ruhən, mənəviyyatca çox yaxındırlar", - deyərək C.Cabbarlının "Od gəlini" əsərindəki Elxan (Babək) surəti ilə Qabilin "Nəsimi" poemasındakı Nəsimi obrazları arasındakı oxşarlıqlara da diqqəti yetirir, hər ikisinin tarixi şəxsiyyət olaraq azərbaycanlı olduğunu qeyd edib, Elxanın "Allah mənim özümdədir" deməsi ilə Nəsiminin "ənəlhəqq" ideyası arasında eynilik olduğunu bildirir.

Ümumilikdə isə ədiblərin, söz-sənət adamlarının Nəsimi mövzusunda fikirlərinin bir araya gətirilib analiz edilməsi ilə Süleyman Alıyev özü də bu yöndə ədəbiyyatşünaslığımıza dəyərli bir töhfə bəxş etmiş oldu.

**Şakir Əlifoğlu**

# 2016-cı ilin yanvar-mart aylarında Cəbrayıl rayonunun sosial-iqtisadi inkişafı haqqında

Cəbrayıl rayonunun ərazisi 1,05 min kvadrat kilometr, əhalisinin sıxlığı isə bir kvadrat kilometrə 74 nəfər təşkil edir. 2016-cı ilin 01 aprel vəziyyətinə rayonun əhalisi 78 min nəfər olmuş (o cümlədən şəhər yeri 12,3 min nəfər, kənd yeri 65,7 min nəfər) və 2016-cı ilin əvvəlindən 204 nəfər, yaxud 0,3 faiz artmışdır. Rayon əhalisinin ümumi sayından 49,3 faizini kişilər (38,5 min nəfər), 50,7 faizini qadınlar(39,5 min nəfər) təşkil edir. Əhalinin 22,6 faizi 0-14 yaşda (17,5 min nəfər), 71,3 faizi 15-64 yaşda (55,7 min nəfər), 6,1 faizi (4,8 min nəfər) 65 və yuxarı yaşda olanlardır. Əhalinin 27,9 faizini (21,8 min nəfər) 14-29 yaşda olan yeniyetmələr və gənclər təşkil edir.2016-cı ilin yanvar-mart aylarında Cəbrayıl rayonunda 159 doğulan, 39 nəfər ölən qeydə alınmışdır. 2015-ci ilin müvafiq dövrü ilə müqayisədə əhalinin hər min nəfərinə hesabı ilə doğulanların sayı 0,5 faiz azalmışdır. İlin əvvəlindən ölənlərin sayı 68 nəfər olmuşdur. 2015-ci ilin eyni dövrü ilə müqayisədə əhalinin hər min nəfərinə ölənlərin sayı 0,4 faiz az olmuşdur. 2016-cı ilin yanvar-mart aylarında rayonda 43 nikah bağlanmış və 14 boşanma faktı qeydə alınmışdır. Əhalinin hər min nəfərinə hesabı ilə 2015-ci ilin müvafiq dövrü ilə müqayisədə nikahların sayı 0,1 faiz az olmuş, boşanma faktlarının sayı da 0,1 faiz azalmışdır. 2016-cı ilin yanvar-mart aylarında 92 nəfər rayon ərazisinə daimi yaşamaq üçün gəlmiş, 8 nəfər isə qeydiyyatdan çıxıb getmişdir. Rayon üzrə miqrasiyanın müsbət saldosu 84 nəfər olmuşdur. İşləyən və işsiz əhalini əhatə edən iqtisadi fəal əhali Cəbrayıl rayonunda 01 aprel 2016-cı il tarixə 54460 nəfər olmuş, 15 və yuxarı yaşda olan əmək qabiliyyətli rayon əhalisinin 70,1 faizini təşkil etmişdir. İqtisadi fəal əhalinin tərkibində məşğul olanların xüsusi çəkisi 95,0 faiz olmuşdur. 2016-cı ilin yanvar-mart aylarında rayonda 56 vahid yeni iş yeri - o cümlədən 2 vahid yeni yaradılmış, 34 vahid mövcud müəssisə və təşkilatlarda, 20 vahid isə fiziki şəxslərdə açılmışdır. 2016-cı ilin yanvar-mart aylarında rayonun iqtisadiyyatında muzdla çalışan işçilərin orta aylıq əmək haqqı 239,9 manat təşkil etmişdir. Ötən ilin müvafiq dövründə isə orta aylıq əmək haqqı 249,7 manat təşkil etmişdir.

Cəbrayıl rayonu ərazisində 2016-cı ilin yanvar-mart aylarında sənaye fəaliyyəti ilə məşğul olan 4 müəssisə mövcuddur. Cəbrayıl rayon kənd içməli su təchizatı müəssisəsi, Cəbrayıl Rayon Paylayıcı Elektrik şəbəkəsinin rayon sahəsi, Cəbrayıl rayon təsərrüfat hesablı Araz istehsal və təlim kombinatı və Cəbrayıl rayon Kommunal Təsərrüfatı müəssisəsi fəaliyyət göstərir. 2016-cı ilin yanvar-mart aylarında istehsal olunmuş mallar, yerinə yetirilmiş iş və xidmətlər 129,8 min manat olmuşdur. Ötən ilin müvafiq dövründə bu göstərici 135 min manat olmuşdur. Ötən ilin müvafiq dövrü ilə müqayisədə istehsal olunmuş mallar, yerinə yetirilmiş iş və xidmətlər 95,1 faiz təşkil etmişdir. Sənaye fəaliyyəti ilə məşğul olan müəssisələr üzrə 2016-cı ilin yanvar-mart aylarında hesablanmış əmək haqqı fondu 102,5 min manat olmuşdur. Ötən ilin müvafiq dövründə bu göstərici 97,5 min manat olmuşdur. Bu da ötən ilin müvafiq dövrü ilə müqayisədə 115,6 faiz deməkdir. Bir işçiyə düşən orta aylıq nominal əmək haqqı 2016-cı ilin yanvar-mart aylarında 231,0 manat, ötən ilin müvafiq dövründə bu göstərici 243,2 manat olmuşdur. Bu da ötən ilin müvafiq dövrü ilə müqayisədə 95 faiz deməkdir. Rayon üzrə tikinti təşkilatlarının 2016-cı ilin yanvar-mart aylarında öz gücləri ilə yerinə yetirdikləri podrat işlərinin dəyəri 323 min manat olmuşdur. Görülən işlərin hamısı cari təmir işləridir. Ötən ilin müvafiq dövründə yerinə yetirilmiş podrat işlərinin dəyəri 502,6 min manat olmuşdur. Baxılan dövrdə yerinə yetirilmiş podrat işlərinin həcmi ötən ilin müvafiq dövrünə nisbətən 64,2 faiz olmuşdur.Tikinti təşkilatlarında ilin əvvəlindən 78 nəfər çalışmışdır. Onlara 51,5 min manat əmək haqqı hesablanmışdır. Ötən ilin müvafiq dövründə isə tikinti təşkilatlarında 75 nəfər calışmış, onlara 55,7 min manat əmək haqqı hesablanmışdır. Bir işçiyə düşən orta aylıq əmək haqqı 245,2 manat olmuşdur. Bu rəqəmləri müqayisə etsək görərik ki, baxılan dövrdə bir işçiyə düşən orta aylıq əmək haqqı ötən ilin müvafiq dövrünə nisbətən 97,4 faiz təşkil edir. Cəbrayıl rayonu üzrə 01 aprel 2016-cı il tarixə yazlıq əkinlərin cəmi 39 hektar təşkil etmişdir. Keçən ilin müvafiq dövründə isə 20 hektar olmuşdur. Keçən il yazlıq əkinlərin hamısı şəkər çuğunduru olmuşdur. Bu il isə 12 ha şəkər çuğunduru, 27 ha isə kartof əkilmişdir.01 aprel 2016-cı il tarixə heyvandarlıq sahəsində qənaətbəxş vəziyyət olmuşdur. Belə ki, qeyd edilən dövrdə rayon üzrə bütün təsərrüfat kateqoriyalarında 10257 baş iri buynuzlu mal-qara, o cümlədən 4015 baş inək və camış, 113421 baş qoyun və keçi mövcud olmuşdur.01 aprel 2016-cı il tarixə mövcud olan mal-qaranın sayını ötən ilin müvafiq dövrü ilə müqayisə etsək görərik ki, iri buynuzlu malqara 27 baş, o, cümlədən inək və camış 240 baş,qoyun və keçilər isə 362 baş artıq olmuşdur. Baxılan dövrdə rayon üzrə ət istehsalı 4361 sentner (diri çəkidə), süd istehsalı 16950 sentner, yumurta istehsalı 1030 min ədəd olmuşdur. 2016-cı ilin yanvar-mart aylarında kənd təsərrüfatı üzrə məhsul buraxılışının həcmi 2582,1 min manat olmuşdur. Rayon üzrə 2016-cı ilin yanvar-mart aylarında dövlət rabitə müəssisələrində göstərilmiş rabitə xidmətlərinin həcmi 23,1 min manat, başqa sözlə keçən ilin müvafiq dövrü ilə müqayisədə 103,6 faiz olmuşdur. Baxılan dövrdə telefon aparatlarının sayı isə 1176 ədəd olmuşdur. Bu telefon aparatlarının hamısı elektron sistemlidir. Bu dövrdə mənzillərə 5 ədəd yeni telefon çəkilişi olmuşdur. 2016-cı ilin yanvar-mart aylarında Cəbrayıl rayonunda pərakəndə əmtəə və xidmət dövriyyəsinin həcmi 113,5 min manat olmuşdur ki, bu da keçən ilin müvafiq dövrü ilə müqayisədə 8,7 min manat və ya 7,7 faiz çox olmuşdur.

**Sahib Süleymanov,**
*Rayon Statistika İdarəsinin rəisi*

“Xudafərin harayından qalan mən!..”

# XUDAFƏRİN

SON SƏHİFƏ № 05 - 06 (6767-6768) 10 may 2016-cı il





# İşıqlı xatirəsi əbədi yaşayacaqdır

Azərbaycanın elmi-pedaqoji ictimaiyyətinə ağır itki üz vermişdir. Həmyerlimiz, fizika-riyaziyyat elmləri doktoru, professor Bəkir Bahadur oğlu Quliyev 28 aprel 2016-cı ildə 78 yaşında vəfat etmişdir.

O, 1938-ci il martın 20-də Cəbrayılın Quycaq kəndində doğulmuşdur. 1945-1952-ci illərdə Quycaq kənd yeddiillik məktəbində oxumuş, 1952-1955-ci illərdə M.Qorki (indiki M.Mehdizadə) adına Cəbrayıl orta məktəbində oxumuşdur. 1955-1960-cı illərdə Azərbaycan Dövlət Pedaqoji İnstitutunun fizika-riyaziyyat fakültəsində ali təhsil almışdır.

Fizika elminə olan marağı nəzərə alınaraq institutun fizika kafedrasında laborant vəzifəsində saxlanılan Bəkir Quliyev iki il sonra Azərbaycan SSR Elmlər Akademiyasının Fizika İnstitutunun aspiranturasına daxil olur. Akademik Həsən Abdullayevin rəhbərliyi ilə hələ çox da geniş öyrənilməyən yarımkeçiricilər sahəsində elmi axtarışlar aparmağa başlayır və 1967-ci ildə yeni yaradılmış Elmi Şuranın ilk iclasında "Yarımkeçirici amorf selenin molekulyar strukturasının öyrənilməsi" mövzusunda dissertasiya müdafiə edərək fizika-riyaziyyat elmləri namizədi alimlik dərəcəsi alır.

Azərbaycan EA-da laborant, kiçik elmi işçi, böyük elmi işçi vəzifələrində işləmiş, 1971-ci ildə yenidən ADPİ-yə qayıtmış, əsas elmi-pedaqoji fəaliyyəti də bu institutla bağlı olmuşdur. Burada baş müəllim, dosent, professor və kafedra müdiri vəzifələrində çalışan Bəkir müəllim institutda “Nazik təbəqələr” elmi-tədqiqat laboratoriyasını yaratmış və 1975-ci ildən 1995-ci ilədək ona rəhbərlik etmişdir. Bu laboratoriyada həm perspektivli elmi tədqiqatlar, həm də tətbiqi əhəmiyyətli elmi işlər aparılmışdır. Laboratoriya xaricdəki və SSRİ-dəki elmi mərkəzlərlə sıx əlaqəli işləyirdi. ABŞ-ın Rutqers Universitetinin professoru B.Laleviç dörd ay bu laboratoriyada işləmişdir. Laboratoriya SSRİ-nin bir çox Elmi-Tədqiqat mərkəzlərilə (Novosibirskdəki EA Elektrometriya və Avtometriya İnstitutu, Moskvadakı Kurçatov adına Atom Enerjisi İnstitutu, Nalçikdəki Elektronika İnstitutu, Podolsk Kimya-Metallurgiya zavodu və s.) elmi işlər aparırdı.

1972-1973-cü illərdə ABŞ-ın Prinston Universitetində elmi təcrübə keçmiş B.B.Quliyev 1980-1981 -ci illərdə ABŞ-ın Runqers Universitetindəki ”Bərk cisimlər elektronikası” laboratoriyasında elmi iş aparmışdır. 1992-ci ildə isə 5 ay Kanadada elmi ezamiyyətdə olmuşdur.

Bəkir Quliyev 1981 - 1983-cü illərdə Moskvada doktoranturada oxumuş, 1985-ci ildə Moskvada Kurçatov adına Atom Enerjisi İnstitutunda ”Səthi bardeli yarımkeçirici strukturlar əsasında yaradılan yeni tip qaz və kimyəvi sensor cihazlarının fızikası” mövzusunda doktorluq dissertasiyası müdafiə edərək fizika-riyaziyyat elmləri doktoru alimlik dərəcəsi adı almışdır.

1986-cı ildə professor adına layiq görülən alim 1991-ci ildən ADPU-nun “Ümumi fızika” kafedrasına müdir seçilmişdir. 1995-ci ildən Türkiyə Respublikasına dəvət edilən görkəmli alim 2003-cü ilədək orada işləmişdir. 2004-cü ildən 2008-ci ilə qədər Azərbaycan Respublikası Prezidenti Yanında Ali Attestasiya Komissiyasında “Fizika-riyaziyyat və iqtisadiyyat” bölməsinin müdiri olmuşdur.

4 ixtira və 4 kitab müəllifi kimi səsi-sorağı çox-çox uzaqlara yayılmışdır. SSRİ, ABŞ, Almaniya, Belçika, İngiltərə, İsveçrə, Macarıstan, Hollandiya, Fransa, Çexoslovakiya, Türkiyə, Səudiyyə Ərəbistanı və başqa ölkələrdə 120-dən çox məruzələr etmiş, habelə məqalələri çap olunmuşdur.

Professor B.Quliyev 1994-cü ildə Beynəlxalq EKO Enerjisi Akademiyasına, 1996-cı ildə Rusiya Federasiyasının Mühəndis Elmlər Akademiyasına, 1999-cu ildə Nyu-York Elmlər Akademiyasına üzv seçilmişdi. 2002-2003-cü illərdə Amerikada çap olunan ensiklopediyada disk tərcümeyi-halı verilmişdi.

Bəkir müəllim işıqlı ziyalı olmaqla bahəm, həm də gözəl ailə başçısı idi. Övladlarını evləndirmiş, ev-eşik sahibi etmişdi. Baba kimi də xoşbəxt idi. Onu da qeyd edək ki, oğlu Samir tibb elmləri namizədidir. Qızı Lalə isə ADPU-nun tarix fakültəsini bitirib. Bu mənada Bəkir müəllimin ölkədə və ölkə xaricində görkəmli alim kimi tanınması onun ictimai dairədəki xoşbəxtliyindən xəbər verirdisə, onun gözəl ailə başçısı və bəxtəvər baba olması da şəxsi həyatdakı xoşbəxtliyini göstərirdi. Deməli, bir alim kimi elmi təfəkkürü ilə mənəvi cəhətdən silinməz izlər qoyduğu kimi, ata kimi, baba kimi də həyatda cismani izini qoyub. Mənəvi və cismani cəhətdən insanın özündən sonra izlər qoyması isə böyük bəxtəvərlikdir.

Xalqımızın bəxtəvər ziyalısı kimi əbədiyyətə qovuşan Bəkir Bahadur oğlu Quliyevin işıqlı xatirəsi qədirbilən xalqımızın xatirində daimi yaşayacaqdır.

**Allah rəhmət eləsin!**

*Cəbrayıl Rayon İcra Hakimiyyəti, YAP rayon təşkilatı və “Xudafərin” qəzeti*



**Rəhimov Səxavət Talıb oğlu 1 aprel 1944-cü ildə Cəbrayıl rayonunun Xələfli kəndində anadan olub. II dünya müharibəsi onu da ata üzünə həsrət qoyub. Erkən yaşlarından halal zəhmətə qatlaşıb. Gənclik illərindən ta 1993-cü ilin payız dönəminə qədər kolxozun qoyunçuluq təsərrüfatında çalışıb. Elat mədəniyyətinə, tərəkəmə həyatına yaxşı bələd olan Səxavət Talıboğlu dağaran köçünü, buzbulaq, yamyaşıl, güllü-çiçəkli yaylaqların təravətini hələ 1970-ci illərin əvvəllərində şeirlərinə gətirib.**

**Yeddillik təhsilə malik olsa da, dünyagörüşü, həyat təcrübəsi və bir də bədiyyat sarıdan fitrəti Səxavətdə əzəli yaradıcılıq qabiliyyətini büsbütün itməyə qoymayıb. 2007-ci ildə "Şor kanaldı bulaqlarım, hey içirəm ütür məni" adlı 50 səhifədən ibarət kitabı işıq üzü görüb. Doğrusun axtarsaq, bu kitab müəllifin özünü şair kimi təqdim etmək istəyindən deyil, içini, sinəsini, könlünü didib-dağıdan nisgil adlı xıltdan təmizləmək niyyəti güdür.**

**Aşağıda S.Talıboğlunun dərdini tərpədən mövzulardan bir neçəsini təqdim edirik.**

*Yusif DİRİLİ*
*Dirli Qurbani Məclisinin sədri*

### KEÇİ

*Keçi əsasən dağ-daş, qayalıq heyvanıdır. Onu nədənsə düzən yerlərə yaraşdıra bilmirəm. Sanki Allah-təala bu heyvanı bizi tək qoymamaq üçün bura göndərmişdi.*

**Məzlum-məzlum nə baxırsan üzümə,**
**Bura sənin yerin deyil, ay keçi.**
**Çox deyirdim inanmırdın sözümə,**
**Bura sənin yerin deyil, ay keçi.**

**Bilirəm ki, çoxalırdı əndişən,**
**Dərdli olur vətənindən gen düşən.**
**Burda nə armud var, nə də yemişən,**
**Bura sənin yerin deyil, ay keçi.**

**Bəyənmirdin böyürtkəni, palıdı,**
**Yayı sərin , qışı bir az qar idi.**
**Sənin yerin elə Qara salıdı,**
**Bura sənin yerin deyil, ay keçi.**

**Görürəm günbəgün pisləşir halın,**
**Hanı Gordubaban, hanı Almalın?**
**Əldən çıxdı Qarabəylin, Heyvalın**
**Bura sənin yerin deyil, ay keçi.**

**Istər səhər, istər axşam, istər dan,**
**Təhlükə gözləyir səni hər bir an.**
**And içələr, don geyələr Qurandan**
**Bura sənin yerin deyil, ay keçi.**

**Bil nə Xələflidi bura, nə Tatar,**
**Nə Parsın dərəsi, nə də Quşçular,**
**Öz-özünə ölüm dilə, öl qurtar,**
**Bura sənin yerin deyil, ay keçi.**

### QARATİKAN

Qaratikan kolunu dədə-babadan yal belində, güney qayaların döşündə görmüşük. Ancaq qaçqınçılığın pis günlərinin birində, Muğan düzündə qəfil gözümə sataşdı. Özümü saxlaya bilmədim...

**Səni gördüm ağlım çıxdı başımdan,**
**Burda nə gəzirsən, ay qaratikan?**
**Bu yerləri görməmişəm yaşımdan,**
**Burda nə gəzirsən, ay qaratikan.**

**Bu yerlərin otu-suyu şordu, şor**
**Onlu-onsuz axırımız gordu, gor.**
**Namərd əğyar sənədəmi qurdu tor,**
**Burda nə gəzirsən, ay qaratikan?**

**Sənin soy-kökün də bəllidir bizə,**
**Sevirsən dağ-dərə, yenməzdin düzə.**
**Dərdimiz üstündən dərd vurma bizə,**
**Burda nə gəzirsən, ay qaratikan?**

**Səxavətəm, dərd məni gətirir cuşa,**
**Dərdimiz eynilə qoşadır, qoşa.**
**Gəlib sığınmısan qarğı-qamışa,**
**Burda nə gəzirsən, ay qaratikan?**

*Səxavət TALIBOĞLU*

### Cəbrayıl rayon prokurorunun 2016-cı ilin may-iyun aylarında yaşayış yerləri üzrə vətəndaşların qəbul vaxtları

| S/S | Yaşayış yerinin adı və qəbul yeri | Qəbul vaxtı | Qəbulu keçirən şəxs |
|---|---|---|---|
| 1. | Sumqayıt şəhəri, Kimyaçılar qəsəbəsi, Cəbrayıl rayon 5 saylı tam orta məktəbin fəaliyyət göstərdiyi inzibati bina. | 21.05.2016-cı il Saat: 11:00 | Prokuror Maarif Hüseynov |
| 2. | Saatlı rayonu, Əlisoltanlı fin evi qəsəbəsi | 27.05.2016-cı il Saat: 11:00 | Prokuror Maarif Hüseynov |
| 3. | Hacıqabul rayonu, məcburi köçkün qəsəbəsi, Cəbrayıl rayonu 7 saylı orta məktəbin inzibati binası | 14.06.2016-cı il Saat: 15:00 | Prokuror Maarif Hüseynov |
| 4. | Bakı şəhəri, Xətai rayonu, Cavanşir küçəsi-84, Cəbrayıl rayon Cocuq Mərcanlı kənd tam orta məktəbin fəaliyyət göstərdiyi inzibati bina. | 25.06.2016-cı il Saat: 11:00 | Prokuror Maarif Hüseynov |

### Cəbrayıl RİH, YAP rayon təşkilatı və “Xudafərin” qəzeti

**Əzizov Məmməd Yusif oğlu**
**Qurbanova Şərqiyyə Muradxan qızı**
**Mehralıyeva Fatma Məhəmmədəli qızı**
**Əhmədova Məhbubə Hüseyn qızı**
**Məhərrəmov Ağa Abdulla oğlu**
**İsmayılov Məhəmməd Yunus oğlu**
**Əhmədov Famil Nuruş oğlu**
**Qurbanova Zəhra Hüseynqulu**
**İsmayılova Lala Qara qızı**
**İbrahimova Simuzər Məmmədalı**
**Mahmudova Firuzə İba qızı**
**Quliyeva Gülbəs Həsənqulu qızı**
**Qasımova Növrəstə Ziyadxan qızı**
**Tahirova Mirvari Əmir qızı**
**Məmmədov Fəxrəddin Həsən oğlu**
**Mirkişiyeva Güllər Sədətqulu qızı**
**Camalov Alı Şahməmməd oğlunun vəfatlarından kədərləndiklərini bildirir və ailə üzvlərinə dərin hüznlə başsağlığı verirlər.**

**Allah rəhmət eləsin!**

Baş redaktor:
**Şakir Əlif oğlu ALBALIYEV**

Qəzet Ədliyyə Nazirliyində qeydə alınıb.
**H/h:55233080000**
**kod: 200888**
**VÖEN: 9900003611**
**M/h: 013010001031**
**Kapitalbankın Cəbrayıl filialı**
**VÖEN: 8200035441**
**Ünvan: AZ 1037, Bakı şəh.,**
Mətbuat prospekti, 529-cu məhəllə
“Azərbaycan” nəşriyyatı.
**Telefon:** (051) 441-15-82

Müəlliflərin mövqeyi ilə redaksiyanın mövqeyi üst-üstə düşməyə bilər.

Materiallardakı faktların doğruluğuna müəlliflər cavabdehdir.

**Əlyazmalar geri qaytarılmır.**

Qəzet “Açıq Səma” qəzetinin kompüter mərkəzində yığılıb, səhifələnib və “Azərbaycan” nəşriyyatında çap edilib.
**albaliyevshakir@rambler.ru**
Sifariş №: **1287**
**Tiraj: 1500**